# Sabitlik inkişafın əsasını təşkil edir



*Hər bir ölkənin inkişafı üçün əsas şərt sabitlikdir. Bu gün biz dünyanın müxtəlif bölgələrində hökm sürən prosesləri izləyərkən bir daha görürük ki, sabitlik pozulduqda bütün başqa məsələlər də öz həllini tapa bilməz. Sabitlik pozulduqda inkişafdan söhbət gedə bilməz.*

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

**Azərbaycanda mövcud olan ictimai-siyasi sabitlik, "iqtidar-xalq" birliyi artıq beynəlxalq aləmdə də etiraf olunur. Bu sabitlik ölkəmizin bütün sahələr üzrə inkişafının əsasıdır. Siyasi, iqtisadi, mədəni sahələrdə əldə edilən uğurlar, investisiyaların cəlb edilməsi, yerli investorların investisiyaları ölkəmizə həvəslə yatırmalarının əsas amillərindən biri də məhz ictimai-siyasi sabitliyin davamlı olmasıdır. Artıq Azərbaycan özünü dünyada etibarlı tərəfdaş kimi təsdiq edib. Respublikamızın regional inkişaf üçün gördüyü işlər, təhlükəsizliyin təmin olunmasındakı qətiyyətli addımları və əməkdaşlıq ən layiqli töhfədir. Bu amillər ölkəmizin beynəlxalq aləmdəki nüfuzunu gündən-günə möhkəmləndirir.**

Hazırda dünya birliyi üzvlərinin mütləq əksəriyyətinin Azərbaycanı dəstəkləməsini şərtləndirən əsas səbəblərdən biri son 16 ildə sabitlik, təhlükəsizlik və inkişafdır. Beynəlxalq ekspertlər də təsdiqləyirlər ki, Azərbaycanda, sözün həqiqi mənasında, sabitlik və əmin-amanlıq hökm sürməkdədir. Ölkəmiz müsəlman dünyasında bir sabitlik adası kimi məşhurdur. Tarixi faktlar da təsdiqləyir ki, o ölkələrdə ki, sabitlik, əmin – amanlıq yoxdur, təhlükəsizlik yüksək səviyyədə təmin olunmayıb, orada xaos və anarxiyanın qarşısını almaq qeyri-mümkündür. Qonşu regionlarda və dünyada baş verən qanlı münaqişələr, toqquşmalar, müharibələr və miqrant axınları da bunun nəticəsidir. Bütün bunların fonunda ölkəmizdə həyat tərzinə çevrilmiş sabitlik mühiti tarixi nailiyyətimiz və sərvətimizdir.

Sabitlik və təhlükəsizliyimizin təminatçısı Azərbaycan xalqı və onun hakimiyyətlə olan monolit birliyi, səfərbər olunmuş cəmiyyət və vətəndaş həmrəyliyidir. Bu birliyin kökündə dayanan əsas amil xalqın Prezident İlham Əliyevə olan inamı, etimadı və etibarıdır. Dövlətimizin başçısının ölkəyə rəhbərlik etdiyi 16 il ərzində verdiyi bütün vədlərə sədaqəti ona olan inamı daha da artırmış və "iqtidar-xalq" vəhdətini möhkəmləndirmişdir. Prezidentin xalqın sevgisini qazanmasını şərtləndirən digər əsas xüsusiyyətlərdən biri də onun hər hansı beynəlxalq siyasi dairənin və ya böyük dövlətin diktəsi altında deyil, məhz öz xalqının mənafeyindən irəli gələn müstəqil siyasəti həyata keçirməsidir. Bəli, bu gün ölkəmizin dünyada söz sahibinə çevrilməsinin prioritetini də məhz bu siyasi kurs təşkil edir. Bu qətiyyətinə görə də Prezident İlham Əliyev dünyada müstəqil siyasət həyata keçirən lider kimi tanınır və böyük nüfuz sahibidir.

Təbii ki, hazırkı mürəkkəb və çətin dövrdə, münaqişələrin alovlandığı, etiraz aksiyalarının kütləviləşdiyi bir şəraitdə müstəqil siyasət həyata keçirmək olduqca çətin, lakin şərəfli fəaliyyətdir. Dövlət başçısının özünün qeyd etdiyi kimi, ən asan olan hər hansısa bir böyük dövlətin qanadları altına sığınıb, öz siyasətini həyata keçirməkdir. Lakin bu siyasətlə uzağa getmək mümkün deyil və heç bir halda hakimiyyətin mənbəyi olan xalqın milli mənafeyini qorumaq olmaz. Prezident İlham Əliyev üçün isə hər şeydən ümdə olan məhz milli maraqlar, müstəqilliyimizin qorunub saxlanılması, Azərbaycanın beynəlxalq əlaqələrini daha da möhkəmləndirməkdir. Elə bu səbəbdən dövlətimizin rəhbəri İlham Əliyev çətin, lakin şərəfli yolu seçmişdir. Bu yeganə düzgün yol bizə ulu öndər Heydər Əliyevdən miras qalmışdır. Məhz bu yolla getdikdə xalq öz taleyinin sahibi olur. Bu yolun başlanğıcı tarixə Milli Qurtuluş Günü kimi daxil olan 1993-cü ilin 15 iyunundan başlanır. Həmin ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyev öncə mövcud problemlərin həlli üçün ölkədə sabitliyin yaradılmasına çalışdı və buna nail oldu. Ulu öndər deyirdi ki, əgər respublikada ictimai-siyasi sabitlik olmasa, heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz.

Ümummilli lider sabitliyin möhkəmləndirilməsi, bütün sahələrdə inkişafın sürətləndirilməsi üçün atəşkəs sazişinin imzalanmasının zəruriliyini önə çəkdi və çətinliklə olsa da, buna nail oldu. Azərbaycan dövləti bu addımı ilə həm ölkəmizin sonrakı inkişafına zəmin yaratdı, həm də ermənilərin əsassız torpaq iddiası nəticəsində yaradılan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında sülh siyasətinə üstünlük verdiyini, münaqişələrin qansız-qadasız, danışıqlar yolu ilə nizamlanmasının vacibliyini bəyan etdi.

Ulu öndər uzaqgörən siyasi fəaliyyəti ilə sübut edirdi ki, hərtərəfli inkişaf üçün ölkədə sabitliyin rolu inkaredilməzdir. "Sabitlik bütün inkişafın əsasıdır" -- deyən Heydər Əliyev bildirirdi ki, heç bir vətəndaş ictimai-siyasi həyata biganə qalmamalıdır. Ümummilli lider tərəfindən müəyyənləşdirilmiş daxili və xarici siyasət nəticəsində Azərbaycan çox qısa zamanda sabitlik diyarına çevrildi. Bu da ölkəmizin iqtisadi qüdrətinin getdikcə möhkəmləndirilməsində, xarici investorların Azərbaycana sərmayə qoymasında, əlverişli biznes mühitinin yaradılmasında mühüm rol oynadı.

Yerləşdiyi coğrafi məkana və malik olduğu təbii resurslara görə dünyanın diqqətində olan Azərbaycana müstəqilliyimizin ilk illərində maraq az olsa da, Heydər Əliyevin siyasi fəaliyyəti və dövlət idarəçiliyindəki zəngin təcrübəsi sayəsində 1994-cü ildən sonra ölkədə yaradılan sabitlik bu diqqətin artmasında əhəmiyyətli rol oynadı. Bundan sonra ölkəmizlə iqtisadi əlaqələrin qurulmasında maraqlı olan dövlətlərin sayı sürətlə artdı.

1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanması ölkəmizin iqtisadi imkanlarının genişlənməsinə, dünya iqtisadi sisteminə inteqrasiyaya yol açdı. "Əsrin müqaviləsi"nin imzalanması mərasimində çıxış edən ulu öndər Heydər Əliyev bu müqaviləni yüksək dəyərləndirdi: "Biz bu müqaviləni imzalamaqla Azərbaycan Respublikasının suveren hüquqlarının bərqərar olduğunu, xalqımızın öz sərvətlərinə sahib olduğunu dünyaya bir daha nümayiş etdiririk. Biz bu müqaviləni imzalamaqla Azərbaycan Respublikası ilə dünyanın inkişaf etmiş dövlətləri, onların ən böyük şirkətləri arasında əlaqələr yaradır, Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına, azad bazar iqtisadiyyatına qoşulması üçün əsas yaradırıq. Biz bu müqaviləni imzalamaqla dünyaya bir daha nümayiş etdiririk ki, Azərbaycan Respublikası demokratik və hüquqi dövlətdir."

Ulu öndərin siyasi kursuna əməli fəaliyyəti ilə sadiqliyini nümayiş etdirən Prezident İlham Əliyev Azərbaycanı sabitlik adasına çevirib. Məhz bunun nəticəsidir dövlət başçımızın ölkəyə rəhbərliyi dövründə respublikamız öz müstəqilliyini daha da möhkəmləndirmiş, sosial-iqtisadi, siyasi-diplomatik və hərbi quruculuq sahələrində çox böyük uğurlara imza atmışdır. Bunu faktlar da təsdiqləyir: ölkə iqtisadiyyatı 3,2 dəfə, qeyri-neft iqtisadiyyatı 2,8 dəfə, sənaye 2,6 dəfə, kənd təsərrüfatı 1,7 dəfə, qeyri-neft ixracı 4,1 dəfə artmışdır. 2004-cü ildə ölkənin valyuta ehtiyatları 1,8 milyard dollar təşkil edirdisə, hazırda bu göstərici 45 milyard dollara çatmışdır. Bu illər ərzində ölkə iqtisadiyyatına 250 milyard dollardan artıq sərmayə qoyulmuşdur ki, bunun da təxminən yarısını xarici investisiyalar təşkil edir. Onu da qeyd edək ki, həmin dövrdə Azərbaycana qoyulan sərmayələr bütün müstəqillik illərində yatırılan investisiyaların 93 faizinə bərabərdir.

Göründüyü kimi, sabitlik və əmin-amanlıq Azərbaycanı uca zirvələrə aparır, ölkəmizin beynəlxalq aləmdəki mövqeyini daha da möhkəmləndirir. Son illər ölkəmizin nüfuzlu beynəlxalq təşkilatların öz tədbirlərini keçirdiyi məkana çevrilməsi də bundan xəbər verir. Artıq mötəbər tədbirlərə, beynəlxalq idman yarışlarına, mədəniyyətlər və sivilizasiyalararası dialoqlara, humanitar forumlara evsahibliyi etmək ölkəmizdə ənənə halını alıb. Bu vaxta qədər keçirilən bütün tədbirlərin insidentsiz başa çatması, sabitliyin, əmin-amanlığın təntənəsidir.

Prezident İlham Əliyevin müəyyən etdiyi müstəqil xarici siyasət sayəsində yaradılmış davamlı sabitlik dünyada bir-birinə qarşı duran qütblər tərəfindən də müsbət qiymətləndirilir. Azərbaycanın müxtəlif güc mərkəzlərindən bərabər məsafədə mövqe seçməsi, ikitərəfli münasibətlərdə bərabər hüquq, qarşılıqlı hörmət, bir-birinin daxili işlərinə qarışmamaq prinsiplərinə sadiq qalması, eyni zamanda, ikitərəfli və üçtərəfli əməkdaşlığımız beynəlxalq aləmdə dövlətimizə və onun rəhbərinə olan loyal münasibətin formalaşmasını şərtləndirən əsas amillərdir.

Bu günlərdə ABŞ-ın aparıcı kütləvi informasiya vasitəsi olan "Amerikanın səsi" portalında dərc olunmuş bir informasiya diqqətimizi cəlb etdi. Həmin məlumatda bildirilir ki, son iki ildə ABŞ-da baş verən ən ölümcül kütləvi atışmalar zamanı 129 nəfər qətlə yetirilmiş, minlərlə adam yaralanmışdır. Belə hallar Böyük Britaniyada, Fransada, Rusiyada, İtaliyada və digər böyük dövlətlərdə də baş verir. Halbuki, bir neçə il əvvəl, ABŞ rəsmiləri öz vətəndaşlarına Azərbaycana getməməyi tövsiyə etmişdi, Avropa UEFA liqasının final oyunu Bakıda keçirilən ərəfədə Böyük Britaniyanın Xarici İşlər Nazirliyi bəyanat yayaraq bu oyunun Bakıda keçirilməsinə etiraz etmişdi və bəhanə də bu olmuşdu ki, guya Bakıda əhalinin təhlükəsizliyinin təmin olunmasına zəmanət verilmir. Fransada "sarı jiletlilərin" polislə toqquşması artıq adi hal alıb. Dəfələrlə şahidi olmuşuq ki, İtaliyada, Kanadada və digər ölkələrdə keçirilən etiraz aksiyaları itlərin, atların vasitəsilə dağıdılmışdır. Başqa dövlətlərin qanadları altında sığınacaq tapan Ermənistanda dinc etirazçıların güllələbaran edilməsi də yaddaşlardan silinməyib. Öz gözlərində tiri qoyub, başqalarının gözündə tük axtaran belə dövlətlər ilk növbədə öz ölkələrində sabitliyin təmin olunmasına nail olmalı, sonra digər ölkələrə "dərs keçməlidirlər".

Hazırda Azərbaycanda bütün xalqların, bütün konfessiyaların, dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar. Bu gün sivilizasiyalararası dialoqun məkanına çevrilmiş Azərbaycan sabitliyin təmin olunmasına görə dünyaya nümunədir. Bunu ölkəmizin dinlərarası dialoqun möhkəmləndirilməsində beynəlxalq aləmə öz dəyərli töhfələrini verməsi, bütün dinlərin nümayəndələrinin mehribanlıq şəraitində yaşamaları və fəaliyyət göstərmələri, o cümlədən Azərbaycanın dünyanın multikulturalizm mərkəzlərindən birinə çevrilməsi də təsdiqləyir.

Bu gün Azərbaycan dünya miqyasında çox böyük hörmətə malik olan bir ölkədir, sabitlik, təhlükəsizlik adasıdır, inkişaf, quruculuq məkanıdır.

***Əliqismət BƏDƏLOV,***
***"Xalq qəzeti"***